

# Uşaqlara qayğı dövlət siyasətinin prioritet istiqamətlərindəndir

Körpə dünyaya gətirmək, böyüdüb boya-başa çatdırmaq, uğurları ilə qürur duymaq hər bir ailənin, ata və ananın böyük arzusudur. Çünki övlad heç bir var-dövlətlə ölçülməyən nemətdir, əvəzolunmaz varlıqdır. Övlad sahibi olmaq dünyanın hər yerində müqəddəs istək hesab olunur. Xalqımız isə bunu həm də mənəvi dəyər kimi qəbul edir. Ona görə azərbaycanlı ailəsində ən yaxşı nə varsa, hamısı uşaqlara yönəldilir, gələcəklə bağlı bütün arzu-niyyətlər uşaqlara məhəbbətdən qaynaqlanır. Biz uşaqları sevir, bəsləyir, qoruyuruq.

Xalqımıza məxsus olan bu yüksək mənəvi keyfiyyət Azərbaycanda həyata keçirilən dövlət uşaq siyasətində öz əksini tapıb. Uşaqların yüksək qayğı ilə əhatə olunması, əlverişli mənəvi və sosial mühitdə böyüməsi üçün zəruri şəraitin yaradılması, onların şəxsiyyət kimi formalaşması əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş dövlət uşaq siyasətinin prioritet istiqamətlərindən birini təşkil edir. 1 iyun - Uşaqları Beynəlxalq Müdafiə Gününün ölkəmizdə hər il geniş qeyd edilməsi də məhz bu siyasətdən irəli gəlir.

Ulu öndər Heydər Əliyev uşaqlara xüsusi qayğı və diqqətlə yanaşırdı, hər il bu bayram münasibətilə, eləcə də Yeni il ərəfəsində, Uşaqları Beynəlxalq Müdafiə Günündə müxtəlif uşaq müəssisələrində olur, onlara göstərilən qayğı və diqqətin daim artırılmasını təmin edirdi. Ulu öndərin uşaqlara xüsusi məhəbbəti onun bütün çıxışlarında öz əksini tapırdı. Və daim qeyd edirdi ki, uşaqlar dünyada hamı üçün əzizdir və dünyanın hər yerində uşaqlara qayğı və onların qorunması xüsusi əhəmiyyət kəsb edir.

Təsadüfi deyil ki, Heydər Əliyevin təşəbbüsü ilə ölkəmizin qoşulduğu ilk beynəlxalq sənədlərdən biri "Uşaq Hüquqları haqqında Konvensiya"dır. "Uşaq hüquqları haqqında", "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında" qanunların qəbul edilməsi, beynəlxalq təşkilatlarla, o cümlədən "SOS" və UNICEF və digər təşkilatlarla sıx əlaqələrin yaradılması Heydər Əliyevin əsasını qoyduğu dövlət uşaq siyasətinin olduqca mütərəqqi olmasından xəbər verirdi. Uşaqların dövlət himayəsində olmasının Konstitusiyada təsbit edilməsi isə ulu öndərin müdrikliyindən və xalqına olan böyük sevgisindən irəli gəlirdi. Heydər Əliyev hesab edirdi ki, heç bir uşaq dövlət himayəsindən kənarda qalmamalıdır.

Əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş, bu gün isə Prezident İlham Əliyevin uğurla davam etdirdiyi dövlət uşaq siyasəti hazırda milli strategiyaya çevrilib. Bu gün Azərbaycan Respublikasının dövlət uşaq siyasətinin başlıca prinsipləri uşaqların keyfiyyətli təhsil və yüksək standartlara cavab verən tibbi xidmətlərlə təmin edilməsi, hərtərəfli qayğı ilə əhatə olunması, yüksək mənəvi və sosial mühitdə böyüməsi üçün zəruri şəraitin yaradılması, şəxsiyyət və layiqli vətəndaş kimi formalaşmasıdır. Ölkəmizdə bu sahədə həyata keçirilən işlər uşaq siyasətində qarşıya qoyulan məqsədlərin layiqincə reallaşmasından xəbər verir. Son 15 ildə bu istiqamətdə olduqca mühüm sənədlər qəbul edilib, xüsusən uşaqların ailələrə verilməsi (de-institusionalizasiya) sahəsində dövlətin diqqət və qayğısı yüksəlib.

Ümumiyyətlə, Azərbaycanda uşaqlara olan həssas və qayğıkeş münasibət ailə hüdudları ilə məhdudlaşmır, bütövlükdə cəmiyyəti əhatə edir. Əbəs yerə "uşaqlar gələcəyimizdir" demirik. Bu gün hər birimizin isti ocağında yetişən, boya-başa çatan körpələr sabah cəmiyyətin simasını müəyyən edəcək, dövlətin gələcəyinə görə məsuliyyət daşıyacaqlar. Sürətlə inkişaf edən, yeniləşən dövlətimizin tərəqqisi, rifahı, yüksəlişi böyüməkdə olan uşaqların, yeniyetmələrin, ümumən gənc nəslin hansı əxlaqi-mənəvi keyfiyyətlərə yiyələnməsindən asılı olacaq. Milli-mənəvi dəyərlərə qəlbən bağlı olan, müasir bilikləri mənimsəyən, vətənpərvər, müasir düşüncəli, kreativ təfəkkürlü gəncliyin yetişdirilməsinə övladlarımızın körpəliyindən, uşaqlıq dövründən başlamalıyıq. Bütün bunlar isə təhsillə, təlim-tərbiyə ilə birbaşa əlaqəlidir. Bu mənada ölkənin gələcəyi təhsilin səviyyəsi ilə ölçülür. Təhsildəki nailiyyətlər hər bir ölkədə inkişaf konsepsiyasının mühüm tərkib hissəsidir. Azərbaycanda son illər təhsilin inkişafı ilə bağlı həyata keçirilən tədbirlər bu sahəyə dövlətin böyük önəm verdiyini göstərir. Təbii sərvətlərlə zəngin olan Azərbaycan bu sərvətlərdən səmərəli istifadə etməklə insan kapitalının yaradılmasını və daha da inkişaf etdirilməsini başlıca hədəf seçib.

Fərəhlə qeyd etməliyik ki, bu gün Azərbaycanda həyata keçirilən mükəmməl təhsil siyasəti gələcəyimiz olan uşaq və yeniyetmələrin layiqli vətəndaş kimi formalaşmalarına, mənəvi cəhətdən daxilən zəngin böyümələrinə böyük zəmin və əsaslar yaradıb. Azərbaycan Respublikasının "Təhsil haqqında" qanununda ümumi təhsilin əsas məqsədi kimi böyüməkdə olan gənc nəsildə vətənpərvərlik, azərbaycançılıq tərbiyəsi önə çəkilir. Bundan irəli gələrək təhsil müəssisələrində tərbiyə işinin səviyyəsinin yüksəldilməsini təmin edən rəngarəng tədbirlər həyata keçirilir.

"Azərbaycan Respublikasında ümumtəhsil məktəblərinin informasiya və kommunikasiya texnologiyaları ilə təminatı Proqramı (2005-2007-ci illər)", "Azərbaycan Respublikasında məktəbəqədər təhsilin yeniləşdirilməsi Proqramı (2007-2010-cu illər)", "2008-2012-ci illərdə Azərbaycan Respublikasında təhsil sisteminin informasiyalaşdırılması üzrə Dövlət Proqramı", Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası kimi sənədlər ölkəmizdə neft kapitalının insan kapitalına çevrilməsinə və bu xüsusda şagirdlərin bilik və dünyagörüşünün artırılmasına xidmət edib. "Xüsusi istedada malik olan uşaqların (gənclərin) yaradıcılıq potensialının inkişafı üzrə Dövlət Proqramı (2006-2010-cu illər)" isə istedadlı məktəblilərin aşkar olunmasına və onlara öz istedadlarını inkişaf etdirmək üçün geniş şərait yaradılmasına yol açıb.

Ölkədə həyata keçirilən dövlət uşaq siyasətinin daha böyük uğurlar əldə etməsində Heydər Əliyev Fondunun xidmətlərini xüsusilə qeyd etməliyik. Valideyn himayəsindən məhrum olan, xəstəliklərdən əziyyət çəkən uşaqlara, aztəminatlı və məcburi köçkün ailələrini övladlarına daim qayğı və kömək etmək, onların mənəvi durğunluq keçirməmələrinə, cəmiyyətə layiqli vətəndaş kimi yetişmələrinə, sosial problemlərinin həllinə dəstək göstərmək Heydər Əliyev Fondunun fəaliyyətində aparıcı xətt təşkil edir. Heydər Əliyev Fondunun atdığı addımlar sırasında bu qəbildən olan uşaqlara, eləcə də uşaq evlərinə, internat məktəblərinə göstərilən böyük diqqət və qayğı Mehriban xanım Əliyevanın əsl vətəndaşlıq mövqeyində dayanmasının, nümunəvi vətənpərvərliyinin və uşaqlara bir ana kimi məhəbbətinin danılmaz sübutudur.

Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın irəli sürdüyü təşəbbüslər, görülən işlər ictimaiyyət tərəfindən daim rəğbətlə qarşılanıb. "Yeniləşən Azərbaycana yeni məktəb" çərçivəsində yüzlərlə təhsil ocağı tikilib istifadəyə verilib. "Uşaq evləri və internat məktəblərinin inkişafı Proqramı" və "Məktəbəqədər uşaq tərbiyə müəssisələrinin yenidən qurulması" layihəsi çərçivəsində çoxlu sayda körpələr evi, bağça və internat məktəbi əsaslı təmir olunub. Uşaq evləri və internat yetirmələrinin sosial-psixoloji reabilitasiyasına imkan yaradacaq resurs mərkəzinin yaradılması, "Kor və zəif görən uşaqlar üçün informasiya-kommunikasiya texnologiyalarına çıxışın təmin edilməsi", "Təhsilə dəstək" və "İnklüziv təhsil" proqramlarının həyata keçirilməsi fondun xidmətləri sırasında xüsusi vurğulanmalıdır. Mehriban xanım Əliyevanın təşəbbüsü ilə həyata keçirilən "Diabetli uşaqlara ən yüksək qayğı" və "Talassemiyasız həyat naminə" layihələri cəmiyyətin diqqətinin uşaqların sağlamlığına yönəldilməsi baxımından müstəsna əhəmiyyət daşıyıb.

Olduqca qürurvericidir ki, cəmiyyətin gələcəyi olan uşaqların sağlam və firavan böyüməsi, onların fiziki və mənəvi inkişafı ölkəmizdə dövlət siyasətinin əsas istiqamətlərindən biridir. Bundan irəli gələrək uşaqların mənəvi və əxlaqi, vətəndaşlıq və vətənpərvərlik tərbiyəsi üçün bütün tədbirlər həyata keçirilir. Ən əsası isə odur ki, respublikamızda uşaqlara qayğının dövlət səviyyəsində, yüksək şəkildə təşkili beynəlxalq birlikdə nümunəyə çevrilib.

Bütün bunlar göstərir ki, Azərbaycan dövlətinin yeritdiyi siyasət ölkədə gələcəyin vətənpərvər, yüksək zəkalı, intellektual gəncliyi olacaq bugünkü uşaqların firavan həyatının, təlim-tərbiyəsinin, fiziki-mənəvi sağlamlığının müdafiəsinə yönəlib. Təbii ki, ölkəmizin iqtisadi imkanları artdıqca cəmiyyətin həssas və kövrək təbəqəsi olan uşaqlara diqqət və qayğı daha da yüksələcək.

*Səadət VEYSOVA,*
*əməkdar müəllim*